AZƏRBAYCAN RESPUBLİKASI ELM VƏ TƏHSİL NAZİRLİYİ

ARTİ AZƏRBAYCAN RESPUBLİKASININ TƏHSİL İNSTITUTU

MÜTDA MƏKTƏBƏQƏDƏR VƏ ÜMUMİ TƏHSİL ÜZRƏ DÖVLƏT AGENTLİYİ

birbank

# RFO

RESPUBLİKA FƏNN OLİMPİADALARI

Ad ____________________ Soyad ____________________

# 8-9

# AZƏRBAYCAN DİLİ VƏ ƏDƏBİYYAT

## AŞAĞI YAŞ QRUPU

- İmtahan müddəti 180 dəqiqədir.
- Hər səhv cavab öz dəyərinin 1/4 - ni aparır.
- 1-10-cu suallar 3, 11-20-ci suallar 4, 21-30-cu suallar 5 balla qiymətləndirilir.
- Nəzarətçilərə cavab kağızları və buraxılış vərəqələri təqdim olunur.
- Sual kitabçasında hər hansı texniki qüsur aşkarlandığı və kitabçanın şagirdin məlumatlarına uyğun olmadığı halda (fənn, bölmə, sinif) imtahandan əvvəl mütləq otaq nəzarətçisinə bildirilməlidir.
- Yarımfinal turunun nəticələrini 04.03.2025-ci il tarixindən etibarən portal.edu.az platformasında şəxsi kabinetinizdən və təhsil aldığınız ümumtəhsil müəssisəsindən öyrənə bilərsiniz.

**Uğurlar!**

**1-5-ci tapşırıqları mətnə əsasən cavablandırın.**

Məlum həqiqətdir ki, materiklərin adlarının tarixi həmin materiklərin kəşf olunması və məskunlaşdırılmasının tarixi ilə sıx bağlıdır. Bu baxımdan qalın buz təbəqələri altında qalan böyük torpaq parçası – Antraktida materikinin kəşf olunması və adlandırılması da maraqlıdır.

Əgər Antraktida sözünə diqqətlə fikir versək, onda görərik ki, bu sözün tərkibində anti sözönü var. Bu sözönünün mənasını isə hamı bilir. Yəni anti "əks" deməkdir. Sözün ikinci komponenti Arktika adlanır. Antarktida sözü bütövlükdə "Arktikanın əksi" mənasını verir.

Antarktida materik və ona yaxın bir neçə adanı özündə birləşdirən torpaq sahəsidir. Antarktida yerləşmə baxımından şimal torpaqlarının və dənizlərinin qarşısında yerləşir. Deməli, aydın olur ki, Antarktida "şimal torpaqlarının və dənizlərinin qarşısında yerləşən torpaq" mənasındadır.

Burada mənası qaranlıq qalan Arktika sözüdür. Arktika sözü "şimal" mənasındadır. Bu söz yunan dilinə məxsusdur. Yəni yunan dilində arktikos sözü "şimal" deməkdir. Yunanlar Böyük Ayı bürcünü nəzərdə tutaraq, bu bürcün altında olan torpaqları Arktika adlandırmışlar. Həmin torpaqlar isə şimalda yerləşirdi.

*Beləliklə, şimal torpaqları və dənizlərinin, yəni Arktikanın qarşısında yerləşdiyinə görə, buzlarla örtülü bu böyük torpaq sahəsi və ona aid olunan adalar Antarktida adlandı.*

Antarktida dünyanın ən soyuq materikidir. Burada temperatur -80°C-yə qədər düşə bilər və güclü küləklər müşahidə olunur. Bu ekstremal hava şəraiti tədqiqatçıların işini çətinləşdirir. Bəzi yerlərdə buzun qalınlığı 4 km-dən çoxdur. Nəqliyyat, infrastruktur və yaşayış üçün uyğun olmayan bu mühitdə tədqiqat aparmaq çətin və bahalıdır. Qitəyə çatmaq üçün xüsusi avadanlıq və nəqliyyat vasitələri lazımdır. Dəniz və hava yolları ilə getmək mümkündür, lakin qış aylarında Antarktida demək olar ki, tamamilə təcrid olunur. 1959-cu ildə imzalanmış Antarktida müqaviləsi bu qitənin yalnız dinc məqsədlər üçün istifadə olunmasını təmin edir. Hərbi fəaliyyətlər, sənaye və mədənçilik qadağandır. Bununla yanaşı, ekosistemin qorunması üçün ciddi ekoloji məhdudiyyətlər mövcuddur. Antarktida tədqiqatları çox yüksək maliyyə tələb edir. Burada tədqiqat aparmaq üçün stansiyalar qurmaq, ekspedisiyalar təşkil etmək və avadanlıq daşımaq böyük xərc tələb edir. Uzun müddət bu ekstremal şəraitdə qalmaq insan sağlamlığı üçün risklidir. Həm fiziki, həm də psixoloji çətinliklər tədqiqatçılar üçün böyük problem yaradır.

Bütün bu səbəblərə baxmayaraq, Antarktida hələ də alimlər üçün maraqlı və mühüm tədqiqat obyektidir, çünki bu qitə iqlim dəyişiklikləri, geologiya və kosmik araşdırmalar üçün vacib məlumatlar təqdim edir.

**1. Mətnə əsasən səbəb-nəticə əlaqəsini müəyyən edin.**

| **Səbəb** | **Nəticə** |
|---|---|
| 1. Antarktida şimal torpaqlarının qarşısında yerləşir. | Antarktida "Arktikanın əksi" mənasında adlandırılmışdır. |
| 2. Yunanlar Böyük Ayı Bürcünü nəzərdə tutmuşlar. | Şimal torpaqları Arktika adlandırılmışdır. |
| 3. Böyük buz təbəqəsi Antarktida materikini örtmüşdür. | Antarktida haqqında tədqiqatlar məhdud olmuşdur. |

A) 1, 2 və 3 B) 2 və 3 C) 1 və 3
D) 1 və 2 E) yalnız 3

**2. Mətndən belə nəticəyə gəlmək olmaz:**

A) Antarktida şimal torpaqlarına və dənizlərinə əks yerləşmişdir.
B) Arktika Böyük Ayı bürcünün yerləşdiyi torpaqları ifadə edir.
C) Antarktida yunan mifologiyasında istifadə edilmiş addır.
D) Materikin çox dəyişkən və təhlükəli hava şəraiti var.
E) Antarktidada tədqiqatlar, əsasən, yay aylarında aparılır.

**3. Mətndə altından xətt çəkilmiş sözü hansı söz ilə əvəz etmək olar?**

A) qət edən B) dərkənar edən
C) təhqiq edən D) ehtiva edən
E) ərz edən

**4. Mətndə hansı suala cavab tapmaq mümkün deyil?**
A) Nə üçün materikə tədqiqatçılar hələ də maraq göstərirlər?
B) Materikdə orta aylıq temperatur neçə dərəcədir?
C) Antarktidaya necə getmək olar?
D) Antarktida müqaviləsinin əsas şərtləri hansılardır?
E) Yunan dilində "arktikos" nə deməkdir?

**5. Mətndə kursivlə verilmiş cümlə ilə bağlı *yanlış* qrammatik hökmlər hansılardır?**
1. "görə" fikrin mənbəyini bildirən modal sözdür.
2. "beləliklə" nəticə bildirən modal sözdür.
3. "və" birləşdirmə, "yəni" aydınlaşdırma mənalı bağlayıcıdır.
4. "qarşısında" sözü istiqamət bildirən qoşmadır.
5. Cümlədə ellipsis işlənmişdir.
A) 1, 2 B) 2, 5 C) 3, 4
D) 4, 5 E) 1, 4

**6.** *... Quzeydə ayağa qalxdı məmləkət,*
***Bir təpə bir dağla üz-üzə gəldi.***
*Millətin qəlbində boy atan nifrət*
*Köksün həmləsiylə o dağı dəldi.*

**Bəxtiyar Vahabzadənin "İstiqlal" əsərindən verilmiş bu nümunənin ikinci misrasında hansı hadisəyə işarə edilir?**

A) 1813-cü il 12 oktyabr "Gülüstan" müqaviləsi
B) 1722-ci ildə Rusiya-Səfəvi müharibəsi zamanı Rusiya çarlığının Dərbənd şəhərini işğal etməsi
C) 1828-ci il 10 fevral "Türkmənçay" müqaviləsi
D) 1805-ci il 14 may "Kürəkçay" müqaviləsi
E) 1990-cı il 20 Yanvar qırğını

**7. Uyğunluğu müəyyənləşdirin.**
1. Yalnız ismi birləşmə işlənmişdir.
2. Yalnız feili birləşmə işlənmişdir.
3. Həm feili, həm də isimi birləşmə işlənmişdir.

a. Günəş qüruba enəndə rəngi saralar.
b. Hələ on yaşı tamamlanmayan Arif məktəbin fəallarından idi.
c. Mart ayının ortaları idi.
d. Müntəzəm və səylə çalışmağı ona uğur gətirirdi.
e. Səlim utanaraq əmisinə nəsə pıçıldadı.

A) 1-a,c, 2-d, 3-b B) 1-a, 2-c, 3-b,e
C) 1-d, 2-a, 3-b,e D) 1-e, 2-a,c, 3-b,d
E) 1-c, 2-a,d, 3-b

**8. Qoşma haqqında hansı fikir *səhvdir*?**
A) "sonra, bəri" qoşmaları bir-birini həmişə əvəz edə bilmir.
B) "-ca" qoşması "ilə, görə, qədər" qoşmaları ilə sinonim ola bilir.
C) "ilə" qoşması samitlə bitən sözlərə qoşularaq həm bitişik, həm də ayrı yazılır.
D) Leksik mənası olmadığı üçün qoşmalar qrammatik şəkilçi qəbul etmir.
E) Qoşmaların bəziləri əsas nitq hissələri ilə qrammatik omonimliyə malik olur.

**9. Fərqləndirilmiş sözlərin hansı nitq hissəsinə aid olduğunu ardıcıllıqla göstərin.**
1. **Belə** daşısaq, axşama qədər bitirəcəyik.
2. **Belə** məlumatları gərək diqqətlə təhlil edəsən.
3. Mən **belə** bəzən səni anlamaqda çətinlik çəkirəm.
A) zərf, əvəzlik, ədat
B) zərf, sifət, ədat
C) əvəzlik, əvəzlik, ədat
D) sifət, zərf, ədat
E) sifət, əvəzlik, ədat

**10. "Koroğlu" eposundan verilmiş sitatın hansı qoldan olduğunu, nöqtələrin yerinə ardıcıllıqla hansı ifadələrin yazılacağını müəyyən edin.**
" ... əzazil bir xan idi. Çox az adam tapılardı ki, onun əlindən sinədağlı olmasın, özü də yaman tamahkar idi. Kimdə bir yaxşı şey görsəydi, ya xoşla, ya hiylə ilə, ya da ki bunların heç birisi baş tutmayanda zorla tutub əlindən alardı. Day camaat onun əlindən zinhara gəlmişdi. Hər yerdə özünü elə göstərirdi ki, guya, .... qohumudur. Odur ki qorxudan heç kəs ona bir söz deyə bilmirdi".

A) "Koroğlu ilə Bolu bəy" , Həsən xan, İstanbul xotkarının
B) "Durna teli", Bolu bəy, İstanbul xotkarının
C) "Düratın itməyi", Həsən xan, Hasan paşanın
D) "Düratın itməyi", Qara xan, İran padşahının
E) "Durna teli", Aslan paşa, İstanbul xotkarının

**11. Bir-birinə sinonim olan sözlərin düzgün verildiyi bəndi müəyyən edin.**
A) qalib – qazanan
B) xərc – məsrəf
C) kədərli – məsum
D) istehza – ələ salmaq
E) kəramət – qabiliyyət

**12. Hansı mürəkkəb adın ixtisarına şəkilçi düzgün artırılmayıb?**
A) DTX-da B) ABŞ-yə C) BDU-nun
D) BƏƏ-yə E) DİN-in

**13. Cədvəldəki *uyğunsuzluğu* müəyyən edin.**

| Əmr cümləsinin xəbəri ola bilməz. | Həm əmr, həm də nəqli cümlənin xəbəri ola bilər. |
|---|---|
| 1. diqqət yetirilməlidir | 4. toxudum |
| 2. oturdun | 5. saxlayam |
| 3. qoruduq | 6. artır |

A) 1, 2, 5 B) yalnız 2, 5 C) yalnız 3, 4
D) 3, 4, 6 E) 3, 5

**14.** "Azad ■ o əsəri tək oxuyacaq, sonra müzakirə edəcəyik" - **cümləsində altından xətt çəkilmiş sözün yeri dəyişdirilib ■ işarəsinin yerində işlənsə, nələr dəyişməz?**
1. əsas nitq hissələrinin sayı
2. cümlə üzvlərinin sayı
3. sintaktik əlaqələrin sayı
4. köməkçi nitq hissəsinin sayı
5. cümlənin quruluşca növü
6. tələffüzü yazılışından fərqlənən sözlərin sayı
7. baş üzvlərin sayı
A) yalnız 2, 4, 5 B) 5, 6, 7
C) 1, 3, 4, 6 D) yalnız 5, 7
E) 1, 2, 3, 6

**15. Hansı cümlə bütünlüklə eyni nitq hissəsinə aid sözlərdən ibarətdir?**
A) Dostumla birliyimizin nəticəsi uğurlarımızdır.
B) Nənənin yadigarı qədimi saxsı çaydan, mis qazan sobanın üstündə idi.
C) Mavigözlü, buruqsaçlı, sarışın körpə bağçadakıların sevimlisi idi.
D) Yaşamaq yanmaqdır, yanasan gərək. (B.Vahabzadə)
E) Uşaqların əlləri, üzü havanın soyuqluğundan bumbuz idi.

**16. Erkən yeni dövr Azərbaycan ədəbiyyatı ilə bağlı yanlış fikirdir:**
A) Bu dövrdə şifahi ədəbiyyat yazılı ədəbiyyata ciddi təsir göstərirdi.
B) XVII yüzillik yazılı ədəbiyyatın intibah dövrü hesab olunur.
C) Həm Füzuli ənənələri davam etdirilir, həm də epik poemalar və tarixi mənzumələr yaranırdı.
D) Bəzi sənətkarlar şifahi ədəbiyyatın janrlarından istifadə edirdilər.
E) Əmani, Fədai, Saib və digər sənətkarlar əsərlərində ictimai həyatda baş verənlərə münasibət bildirirdilər.

**17. Hansı bənddə köməkçi nitq hissələrinə aid sözlər daha çoxdur?**
A) Dənizi unudum, ya dalğaları?
Xatirən yadımdan çıxaydı barı.
Payızda xəzanı, qışdasa qarı,
Baharda gülləri unudam gərək!...
(N.Kəsəmənli)
B) Bəhmən, nə gəzirsən itən çağında,
Min bir xatirə var ötən çağında. (B.Vətənoğlu)
C) Kaş rəssam olaydım, elə rəssam ki,
Çəkəydim bəxtimi olduğu kimi. (Sücaət)
D) Əyləncələr qoymadı ki, göz açaq;
Hər istəyi biz beləcə bitirdik. (N.Kəsəmənli)
E) Sücaətəm, döndüm aha,
Ümid qalıb bir Allaha.
Dəli könül, sorma daha,
O günləri hardan alım?! (Sücaət)

**18.** *"Bizim evə gəlib-gedən, nənəm Mehri xanımla dostluq edən Nənəxanım adlı qoca bir arvad vardı, qara, köhnə çarşaba bürünüb gəzərdi... Onunla atam təsadüfən küçədə rastlaşmış, bir xahişini yerinə yetirmək üçün kimsəsiz qocanı evə gətirmiş və uçurum qarşısında duran bir ailəni fəlakətdən xilas etmişdi. Bu təsadüf atamın 1923-cü ildə qələmə aldığı "........................" hekayəsinin yazılmasına səbəb olmuşdu."* – **Nöqtələrin yerinə hansı əsərin adı yazılmalıdır**?

A) "Anabacı"
B) "Zeybək qızı"
C) "İki həyat arasında"
D) "Nurəddin"
E) "Bahar"

**19.** *"...Bilsin ana torpaq, eşitsin Vətən,*
*Müsəlləh əsgərəm mən də bu gündən..."* –
**S.Vurğunun müharibənin başlandığı gün yazdığı bu şeirdə "müsəlləh" sözü nə mənaya gəlir?**

A) İgid
B) Boya-başa çatmış
C) Silahlı
D) Məğlubedilməz
E) Sülhsevər

**20. S.Rüstəmin "Təbrizim" şeiri haqqında demək *olmaz*:**

A) Şeirin yaranmasında İkinci Dünya müharibəsi illərində şairin Cənubi Azərbaycan səfəri əsas rol oynamışdır.
B) Şeirdə şairin birlik arzuları da öz əksini tapmışdır.
C) Şeir ikinci bənddən etibarən "aaabb" şəklində qafiyələnmişdir.
D) Şeir otaylı-butaylı soydaşlarımızın böyük rəğbətini qazanmışdır.
E) "Təbrizim, Təbrizim, aman Təbrizim,
Yox olsun başından duman, Təbrizim" – misralarında şair metafordan istifadə etməklə fikrin təsir gücünün artırmışdır.

**21. Şeirləri müəlliflərə görə qruplaşdırın:**

| | Dünyada ağıltək bir ustad varmı? O, bir qul yanında şagird olarmı? | Ədalət çırağındır yolunda, olma naşı, Bu günündür sabahın ən mehriban yoldaşı. | Mehribanlıq eyləyib mən sözlərə verdim sığal. Quş kimi açdı qanad, göylərdə cövlan etdi söz. | Xazini-gəncineyi-əsrardır, hər dəm çəkər, Rişteyi-izharə min-min gövhəri-əsrar söz. |
|---|---|---|---|---|
| A | Xaqani Şirvani | Nizami Gəncəvi | Saib Təbrizi | Məhəmməd Füzuli |
| B | Nizami Gəncəvi | Xaqani Şirvani | Məhəmməd Füzuli | Saib Təbrizi |
| C | Saib Təbrizi | Xaqani Şirvani | Nizami Gəncəvi | Məhəmməd Füzuli |
| D | Xaqani Şirvani | Saib Təbrizi | Məhəmməd Füzuli | Nizami Gəncəvi |
| E | Nizami Gəncəvi | Saib Təbrizi | Xaqani Şirvani | Məhəmməd Füzuli |

**22. Ç.Aytmatovun "Dəniz kənarı ilə qaçan Alabaş" əsəri ilə bağlı yanlış fikri müəyyən edin.**

A) Əsərdə axşamdan coşub səhərə yaxın sakitləşən dəniz və Alabaş buxtası təsvir edilir.
B) Kirisk ova elə həvəsli idi ki, hələ uşaq olmasına baxmayaraq, babasının əvəzinə avar çəkirdi.
C) Bu balıq ovu Kiriskin peşəkar balıqçılarla ilk ovu idi.
D) Əsərdəki "Ağıl - göydən, səriştə - uşaqlıqdan" deyimi ona işarə edir ki, insan müəyyən bir peşə vərdişlərinə uşaqlıqdan yiyələnməlidir.
E) Qoca Orqan Kiriskin hisslərini anlayır, onu başa düşürdü.

**23.** Yazılışına görə məntiqi ardıcıllığı tamamlaya ***bilməz***.

1. meridian 2.diskirminasiya
3. şırım 4. ...

A) vay-qanlı B) toxtaq C) patalogiya
D) züm-zümə E) emusiya

**24. Eyler-Venn diaqramına əsasən *yanlış* fikirləri müəyyənləşdirin.**

I. Heç nə baş verdiyindən xəbərim yoxdur.
II. Heç nəyin üstündə küsmək onun da adətidir.




1. Feili sifət birləşməsi işlənmişdir.
2. Müəyyən şəxsli, geniş, ismi xəbərli cümlədir.
3. Quruluşca mürəkkəb qeyri-müəyyən əvəzlik işlənmişdir.
4. Köməkçi nitq hissəsi işlənmişdir.
5. Xəbər isimlə ifadə olunmuşdur.
6. İkinci dərəcəli üzv söz birləşməsi ilə ifadə olunmuşdur.

A) 2, 4, 5 B) 1, 3, 4 C) 3, 5, 6
D) 1, 2, 3 E) 3, 4, 6

**25. M.İbrahimovun "Gələcək gün" romanından verilmiş hadisələrin ardıcıllığını nəzərə almaqla sxemi tamamlayın.**

| |
|---|
| *Firudun bir il Təbrizdə işlədi.* |
| ........................................... |
| *Getdikcə şişi artan qıçını göstərib təcili əlac istədi.* |
| *Hamının ürəyi dərddən, qəzəbdən partlama dərəcəsinə gəlirdi.* |
| ........................................... |
| *Xırmana çatdıqda hamını heyrət aldı.* |

*1. Pis-yaxşı hər il qışı yaza çıxarır və beləliklə, aclıq nə olduğunu bilmirdilər.*
2. *Tehranda onlar çox çətinlik çəkdilər.*
3. *Kəndə dayısı Musa kişinin yanına getməyi qərara aldı.*
4. *Firudun da dayana bilməyib qəmgin bir halda xırmanlara döndü.*
5. *Camaatdan sevinclə dolu bir səs çıxdı.*
6. *Hikmət İsfahani ağır sükutu pozdu.*

A) 1, 4 B) 2, 5 C) 3, 6
D) 2, 4 E) 1, 5

**26. Eyler-Venn diaqramına əsasən *yanlış* fikirləri müəyyən edin**.

I. "Söz" (M.Füzuli)
II. "Qafqaz müsəlmanlarına xitab" (S.Ə.Şirvani)




1. İlk iki misrasının qafiyə quruluşu ***aa*** şəklindədir.
2. "İnsan mənəvi əbədiyyət qazana bilər" fikrinin bədii təhlili verilir.
3. Şeir vahidi beytdir, rədifli şeirdir.
4. Bölgüsü eyni təfilələrə əsaslanan lirik əsərlərdir.
5. Müəllif nadanlığın insana pərişanlıq gətirdiyini qeyd edir.
6. Bəziləri hikmətli sözlərin mənasını bilmədiyindən bu sözlər dəyərini itirir.

A) 2, 4, 5, 6 B) 1, 2, 3, 6 C) 2, 3, 4, 5
D) 1, 2, 4, 6 E) 1, 3, 4, 6

**27. Verilmiş bədii nümunələrdən biri bəhrinə görə fərqlidir.**

A) Yaşın yerə tökdü əbri-neysan.
Bülbüllər oxudu sədhəzaran.

B) Xoş keçmədi il çöllüyə, dehqanə, nə borcum?
Yağmadı yağış, bitmədi bir danə, nə borcum?

C) Hər şey günəşə qurutdu yaşin,
Qövsi-qüzeh açdı tər qumaşin.

D) Bir zərrə belə qorxmayırız dəsti-əcəldən,
İstərsə cahan çevrili varsın da təməldən.

E) Qeyrilər etdilər tərəqqiyi-tam,
Qaldı zillətdə firqeyi-islam.

**28. Ə.Cavadın "Azərbaycan bayrağına" şeiri ilə bağlı *yanlış* fikri müəyyən edin.**

A) Bəndlər şəklindədir, şeirin adı rədifi ilə eynilik təşkil edir.

B) Şair bayraqdan bəhs edərkən türklərin soykökü məsələsinə də toxunmuşdur.

C) İlk bəndin qafiyə quruluşu ***abcb*** şəklindədir.

D) Müəllif bayrağın kölgəsini "dövlət quşu" adlandırır və düşdüyü yeri belə öpməyə hazır olduğunu bildirir.

E) Şair təkcə üçrəngli bayrağımızı tərənnüm etməklə kifayətlənməmiş, bayraqdakı ay və ulduza da münasibət bildirmişdir.

**29. Verilənlərə əsasən *doğru* fikirləri seçin.**

** Vura bilməyən daşın böyüyünü götürər.*
** Sözün düzünü zarafata salıb deyərlər.*
** Göz gördüyündən qorxar.*

| Cümlələrdən yalnız birinə aiddir. | Cümlələrdən ikisinə aiddir. | Cümlələrdən üçünə də aiddir |
|---|---|---|
| 1. Xəbəri söz birləşməsi ilə ifadə olunub.<br>2. Ümumi şəxsli cümlədir. | 3. Müəyyən şəxsli cümlədir.<br>4. İsimləşmiş feili sifət var. | 5. Mübtədası buraxılmışdır.<br>6. Xəbərlər xəbər şəklində olan feillə ifadə olunmuşdur. |

A) 2, 4, 5, 6 B) 1, 3, 5, 6 C) 2, 3, 4, 5
D) 2, 3, 4, 6 E) 1, 2, 4, 6

**30. İsmi xəbərli şəxssiz cümlələri göstərin.**

1. Böyük bir bağ, güllük-çiçəklik, bağın ortasında xırda balıqların üzdüyü kiçik bir hovuz.
2. Rastlaşdığı bu dəhşətli mənzərədən İsmayılın rəngi qaçmışdı.
3. May ayının yağışlı, küləkli günlərindən biri idi.
4. Sərgidə nümayiş etdirilən onun əl işləri idi.
5. Artıq belə məsələlərdən ciddi danışmaq vaxtıdır.

A) 1, 2, 5 B) 3, 5 C) 2, 3, 4
D) 1, 4 E) 1, 4, 5